# Böyük qələbəmizin başlıca reallıqları



*Əgər hətta bir il bundan əvvəl bəziləri bizə deyirdilərsə ki, siz mövcud olan reallıqla barışın, bu gün mən deyirəm, hər kəs mövcud reallıqla barışmalıdır. Noyabrın 10-da imzalanmış Bəyanata əgər kimsə müdaxilə etmək istəsə, bizim sərt mövqeyimizi görəcək.*

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

***Azərbaycanın Vətən müharibəsində böyük qələbəsi şöhrət tariximizə qızıl hərflərlə yazıldı. Döyüş meydanlarında işğalçı ölkə ordusuna vurulan sarsıdıcı zərbələr, dünya diplomatiya savaşında cənab İlham Əliyevin qazandığı parlaq uğur, nəhayət, alınmaz qala olan Şuşanın geri qaytarılması noyabrın 10-da Azərbaycan, Rusiya prezidentlərinin və Ermənistanın baş nazirinin birgə bəyanat imzalaması ilə nəticələndi. Bütün bunlar 30 illik münaqişə ilə bağlı yeni reallıqlar yaratdı. Özü də məhz Azərbaycanın xeyrinə olan reallıqlar, Azərbaycanın diktə etdiyi reallıqlar.***

Qələbəyə zəmin yaradan əsas gerçəklik ondan ibarət idi ki, Azərbaycan Prezidentin dekabrın 1-də xalqa müraciətində bəyan etdiyi kimi, biz yeni əsrin əvvəllərindən qüvvələrimizi səfərbər edib ölkəmizi gücləndirir, toparlanırdıq. Həm beynəlxalq müstəvidə, həm ölkə daxilində, həm də iqtisadi məsələlərin həllində, ölkəmizdə həmrəyliyin və birliyin möhkəmlənməsində, ordu quruculuğunda güc toplayırdıq ki, işğal altında olan torpaqlarımızı xilas edək. Ötən ilin payızında hakimiyyət, ordu və xalq birliyi sayəsində həmin gücü dəmir yumruq formasına gətirdik, düşmənin belini qırdıq və işğala son qoyduq.

Dünyanın ermənipərəst gücləri, beynəlxalq "malalayıcı" təşkilatlar sentyabrın 27-dək olan status-kvonu olduğu kimi saxlamağa, fəaliyyətsizlik timsalı olan ATƏT-in Minsk qrupu çərçivəsində danışıqları uzatmağa nə qədər çalışsalar da, döyüşlərin aktiv fazasında işğalçı dövlətin ordusunu aşkar-gizli silahlandırsalar da, sonda ədalət zəfər çaldı. Birinci Qarabağ müharibəsində zəbt etmiş olduğu mövqeləri ard-arda əldən verən Ermənistan İkinci Qarabağ müharibəsini cəmi 44 günə uduzdu və biabırçı kapitulyasiya sənədinə qol çəkməli oldu. Mərdanə döyüşlə, əsgər, gizir və zabitlərimizin canı-qanı bahasına alınan bölgələrdən başqa, daha üç rayon –Ağdam, Kəlbəcər və Laçın özünün əsl sahibinə təslim edildi. Bu, hərb meydanında qazandığımız böyük qələbələrin siyasi-diplomatik yolla davamı oldu.

Qələbədən sonra ən yüksək səviyyələrdə üçtərəfli razılaşmanı pozmaq cəhdləri iflasa uğradı, Milli Ordumuzun dəqiq əks-həmlə əməliyyatları ilə düşməni yerində oturtması isə bölgədə yeni təhlükəsizlik formatı yaratdı. Azərbaycan dünyaya sübut elədi ki, sülh yolu ilə mümkün olmayan haqqın bərpası məhz güc yolu ilə mümkündür. İllərcə səbr, təmkin nümayiş etdirib münaqişənin beynəlxalq normalar çərçivəsində həllini, torpaqlarımızın danışıqları yolu ilə boşaldılmasını gözlədik, lakin buna olan ümidlərimizi sarsıtdılar, səylərimizi heçə endirdilər və bizim öz halal haqqımıza məhz güc hesabına, dəmir yumruq hesabına yiyələnməkdən başqa yolumuz qalmadı. Vətən savaşında möhtəşəm qələbənin sayəsində Cənubi Qafqaz regionunda bu gün və gələcək üçün yeni təhlükəsizlik, yeni əməkdaşlıq formatını təşkil etdik. Əsasən gücümüz, qətiyyətimiz, dönməzliyimiz hesabına haqlı olduğumuzu sübuta yetirməli olduq. Şeir dili ilə desək, bu zəfər sərbəst və heca vəznlərində alınmasa da, çətin və daha ritmik olan əruz vəznində ərsəyə gəldi.

Reallıq odur ki, bu gün Azərbaycan çoxəsrlik dövlətçilik tarixinin ən qüdrətli dövrünü yaşayır. Xalqın suveren iradəsi üzərində yüksələn uğurlu dövlət siyasəti üçrəngli, ay-ulduzlu bayrağımızın ən uca zirvələrdə qürurla və əzəmətlə dalğalanmasını təmin eləyib. Dünya Azərbaycanın yaratdığı yeni reallıqları həvəslə olmasa da, qəbul edir. Hətta bir çox erməni siyasətçiləri də Azərbaycanın hər barədə onların monorespublikasından üstün olduğunu ac-acı etiraf edirlər. Yəni Ermənistan ordusunun məğlubedilməzliyi barədə mif dağılaraq parça-parça olub.

Cənab İlham Əliyevin uzaqgörən siyasəti, torpaqlarımızın azadlığı uğrunda ilk gündən nümayiş etdirdiyi hərbi-siyasi əzmkarlığı hər bir soydaşımızı öz rəhbərinin ətrafında daha sıx birləşdirdi. Azərbaycan vətəndaşları hər gün müzəffər Ali Baş Komandanın qələbə soraqlı müraciətlərini gözlədi və dövlət başçısının hər müjdəsini fərəh dolu göz yaşları ilə bayram etdi. Möhtərəm Prezidentimizin xalqa hər bir müraciəti tarixi hadisəyə çevrilərək xalqımızı daha da ruhlandırdı, Ermənistan üzərində tam qələbəni sürətlə yaxınlaşdırdı və tərəqqipərvər bəşəriyyətin təqdirini qazandı.

Mühüm reallıqlardan biri də Azərbaycan Silahlı Qüvvələrinin işğalçı Ermənistan üzərində qələbəni məhz dünyada ilk dəfə olaraq son nəsil hücum silahları sayılan modern dronlardan, pilotsuz uçuş aparatlarından ustalıqla istifadə sayəsində qazanmasıdır. Orta hündürlüklü, uzun uçuşlu operativ-taktiki "Bayraqtar TB"-ləri ustalıqla yönləndirən hərbçilərimiz özlərini döyüşlərdə məhz əsl bayraqdarlar kimi göstərə bildilər. Bu, sözün əsl mənasında yüksək döyüş qabiliyyəti, taktiki və strateji hazırlıq, hərbi qüdrət və ən nəhayət həqiqi vətənpərvərlik nümunəsi idi. Şübhəsiz, Azərbaycanın tarixi ədaləti bərpa etməsi regionda yeni əməkdaşlıq və təhlükəsizlik platformalarının formalaşmasını, yeni işbirliyi formatı və mexanizmlərinin yaranmasını şərtləndirən strateji perspektivlər faktoruna çevriləcək. Gizli deyil ki, hazırda beynəlxalq aləm ilk dəfə Azərbaycan ordusunun uğurla tətbiq etdiyi, ənənəvi tank, top və hava hücumundan müdafiə sistemlərindən alternativsiz istifadəni kölgədə qoyan yeni hava nəzarəti, kəşfiyyat və hədəfə zərbə cihazların üstünlüklərini sərf-nəzər edir. Sadə dillə desək, bu, hərbi aviasiya sahəsində bir inqilab kimi dəyərləndirilir. Təsadüfi deyil ki, Qarabağ döyüşlərini şərh edən siyasi və hərbi ekspertlər bu gün vəcdlə "Azərbaycan gedə bildiyi qədər uzağa gedəcək" – deyirlər.

Noyabrın 10-da imzalanmış üçtərəfli bəyanatın yanvarın 10-da imzalanan növbəti üçtərəfli bəyanatla daha da möhkəmlənməsi də mühüm gerçəklikdir. Sərhədlərimizin bərpası, nəqliyyat kommunikasiyalarının açılması, Naxçıvanla şərq rayonlarımız arasında əlaqənin təmin olunması, nəhayət, qardaş Türkiyənin Qafqazda rolunun artması, Ağdamdakı Birgə müşahidə Mərkəzində Rusiya ilə bərabər sülhyaratma missiyasına qoşulması Azərbaycanın uğur tendensiyaları sırasında xüsusilə diqqətəlayiqdir.

Moskvada keçirilmiş üçtərəfli görüşdən sonra Prezident İlham Əliyev nəqliyyat kommunikasiyalarının açılmasının Azərbaycan, Ermənistan, Rusiya xalqlarının, qonşularımızın mənafelərinə cavab verdiyini vurğulayıb: "Əminəm ki, qonşu ölkələr də bizim regionda nəqliyyat dəhlizlərinin və nəqliyyat arteriyalarının şaxələndirilmiş şəbəkəsinin yaradılmasına fəal qoşulacaqlar. Biz bundan sonra da qısa müddətdə səmərə verən və nəticəyə yönəlmiş fəaliyyət sahələrini tapmağa çalışmalıyıq".

Təəssüf ki, bəzi inkarçı antimilli ünsürlər məhz ermənilər kimi, qələbəmizə ağız büzür, onun əhəmiyyətini azaltmağa çalışır, nankorcasına qədirbilməzlik edirlər. Adda-budda olsa da, "qara piar", "fake news" kampaniyası aparırlar. Onlar görmək istəmirlər ki, 44 günlük Vətən müharibəsinin möhtəşəm qələbə ilə nəticələnməsi, düşmən tapdağı altında inləyən torpaqların işğaldan qurtarması təkcə ölkəmizin ərazi bütövlüyünün və tarixi ədalətin bərpası deyil. Bu, eyni zamanda, həm respublikamız, həm də region üçün yeni siyasi-iqtisadi reallıqlar formalaşdıran, mühüm strateji perspektivlər təmin edən çox önəmli bir geosiyasi amildir. Falçı xislətli bəzi milli təhlilçilərdən fərqli olaraq, dünya siyasətini dürüst dəyərləndirən bir çox beynəlxalq ekspertlər ölkəmizin milli güc kontekstində beynəlxalq hüquq normalarının tələblərinin yerinə yetirilməsi ilə bağlı mühüm presedent yaratdığını söyləyir və bildirirlər ki, bu, dövlətlərarası münasibətlərdə yeni, ədalətli strategiyanın meydana gəlməsini şərtləndirib. Başqa sözlə desək, Azərbaycan iqtisadi potensialı, siyasi imkanları, diplomatik resursları və hərbi qüdrəti vasitəsilə torpaqlarını işğaldan azad etdi, ərazi bütövlüyünün bərpasına nail oldu. Yəni bir dövlətin öz gücünə güvənərək beynəlxalq hüquq normaları tələblərinin yerinə yetirilməsini təmin edə bildi.

Bu gün bizim qətiyyətlə külli-aləmə səsləndiyimiz reallıqlardan biri və bəlkə də ən vacibi odur ki, artıq dünyaya Dağlıq Qarabağ problemi adlanan bir müşkül yoxdur və Azərbaycanın bu tarixi ərazisində ikinci erməni dövləti yaratmaq iddialarına birdəfəlik son qoyulub. Məğlub Ermənistan və onun Xankəndidəki "şikəst"qondarma rejimi mənasız status iddialarını tezliklə yerə qoyacaq və yerli ermənilər Azərbaycanın qanunlarına tabe olacaqları təqdirdə burada vətəndaşlıq qazanıb qala və normal yaşayışa ümid edə bilərlər. O da əgər əldə silah separatçı hərbi dəstələrin tərkibində Azərbaycan əsgərinə qarşı vuruşmayıb, dinc əhalimizə qarşı terrorçu hücumlarda iştirak etməyiblərsə. Əlbəttə, bütün bunlar araşdırılıb dəqiqləşdiriləcək.

Rusiya Prezidenti Vladimir Putinin də dediyi kimi, Dağlıq Qarabağ münaqişəsi keçmişdə qalıb və biz gələcək barədə, qonşular kimi birlikdə necə yaşamaq, nəqliyyat arteriyalarının açılması məsələlərini həll etməyə necə çalışmaq və gələcəkdə regional sabitliyi və təhlükəsizliyi möhkəmlətmək haqqında düşünməliyik.

Ən aşkar reallıq budur ki, qalib ölkəmiz bu gün yeni inkişaf mərhələsinin astanasındadır. Qarşımızda yeni tərəqqi dövrü dayanır. İşğaldan azad olunan ərazilərdə bərpa və quruculuq işlərinin həyata keçirilməsi, Böyük Qayıdışın tezliklə təmin edilməsi, yeni iqtisadi platformaların yaradılması həm Azərbaycanın daha da güclənməsinə rəvac verəcək, həm də regional güc mərkəzi kimi dünya iqtisadiyyatında onun yerini daha da möhkəmləndirəcək. Bütövlükdə bu reallıqlar Azərbaycanın daha xoşbəxt gələcəyinə zəmanət verir.

***Əli NƏCƏFXANLI,***
***"Xalq qəzeti"***